# Fransa sülhə təhlükə yaradır

Əsrlərdir müstəmləkəçilik siyasəti yürüdən, Afrika və Yaxın Şərqdə həyata keçirdiyi aqressiv kolonializasiya siyasətinin gətirdiyi fəlakətlərdən nəticə çıxarmayan, öz müstəqilliyinə qovuşmaq istəyən xalqların azadlıq uğrunda mübarizələrinə qarşı aqressiv tədbirlərdən əl çəkməyən Fransanın, əslində, "erməni sevgisi"ndə də riyakarlıq, mənfəətpərəstlik, hiyləgərlik, məkr var. Emmanuel Makron hökuməti, doğrudan da, Ermənistanın gələcəyini, ermənilərin rifahını düşünsəydi, rəsmi İrəvanın astanasında dayandığı sülhü əldə etməsinə nəinki əngəl olmağa çalışmaz, hətta bu istiqamətdə ona kömək göstərməyə səy edərdi.

Son illər müstəmləkəçilik siyasətində uğursuzluqlarla qarşılaşsa da, Fransa hökuməti xislətindən əl çəkib, ağızdolusu dəm vurduğu demokratiyanı sözdə yox, əməldə göstərmir. Yenə də ölkələrin əmin-amanlıq şəraitində yaşamasının üstündən xətt çəkmək üçün hər oyundan çıxır.

→ 10

# Fransa sülhə təhlükə yaradır

**Rəsmi Parisin Cənubi Qafqazda təhlükəsizliyi təmin etmək deyil, sülhə əngəl törətmək, regionda növbəti münaqişə ocağı yaratmaq niyyətində olduğu hər kəsə məlumdur.**

Əsrlərdir müstəmləkəçilik siyasəti yürüdən, Afrika və Yaxın Şərqdə həyata keçirdiyi aqressiv kolonializasiya siyasətinin gətirdiyi fəlakətlərdən nəticə çıxarmayan, öz müstəqilliyinə qovuşmaq istəyən xalqların azadlıq uğrunda mübarizələrinə qarşı aqressiv tədbirlərdən əl çəkməyən Fransanın, əslində, "erməni sevgisi"ndə də riyakarlıq, mənfəətpərəstlik, hiyləgərlik, məkr var. Emmanuel Makron hökuməti, doğrudan da, Ermənistanın gələcəyini, ermənilərin rifahını düşünsəydi, rəsmi İrəvanın astanasında dayandığı sülhü əldə etməsinə nəinki əngəl olmağa çalışmaz, hətta bu istiqamətdə ona kömək göstərməyə səy edərdi.

Son illər müstəmləkəçilik siyasətində uğursuzluqlarla qarşılaşsa da, Fransa hökuməti xislətindən əl çəkib, ağızdolusu dəm vurduğu demokratiyanı sözdə yox, əməldə göstərmir. Yenə də ölkələrin əmin-amanlıq şəraitində yaşamasının üstündən xətt çəkmək üçün hər oyundan çıxır. Fransa verdiyi qərarlarla, atdığı addımlarla şübhə yeri qoymur ki, planı Cənubi Qafqazda suyu bulandırmaq, regionu savaş meydanına çevirməkdir. Məqsədinə çatmaq üçün bütün vasitələrə əl atır. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanmasına əngəllər yaratmağa, aranı qızışdırmağa cəhd göstərir. Emmanuel Makron hökumətinin bu gedişlə ilk növbədə özünü dost kimi göstərdiyi Ermənistanı zərbə altında qoyacağı isə, deyəsən, Nikol Paşinyan hökumətindən başqa hər kəsə əyandır.

Aprelin 2-də Parisdə Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnen ABŞ Dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı növbəti dəfə əsassız iddialar səsləndirərək Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərini bir daha təsdiqlədi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin Azərbaycana qarşı iddialarını şərh edərkən vurğuladı ki, Azərbaycan ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, bir milyona yaxın azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, kütləvi qırğınlar və insanlıq əleyhinə cinayətlər törədən Ermənistanın Fransa tərəfindən sülhpərvər ölkə kimi təqdim edilməsi bu ölkənin həm vasitəçiliyi dövründə, həm də 44 günlük Vətən müharibəsindən sonra yürütdüyü siyasətin nə qədər saxta olduğunu nümayiş etdirir.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi bildirdi ki, bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransa tərəfinin Azərbaycanı aqressiv ritorikada təqsirləndirməsi qəbuledilməzdir: "Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi kimi məsul vəzifəni yerinə yetirdiyi bir dönəmdə ölkənin imicinə xələl gətirmək məqsədi güdən və sədrliyimizi hədəf alan bu kimi çağırışlardan çəkilməsinin Fransa və dünyamız üçün daha faydalı olacağını hesab edirik".

Ayxan Hacızadə qeyd etdi ki, məhz Fransa kimi ölkələrin son 30 ildə Ermənistanın təcavüzünü ört-basdır edən siyasətinin heç bir fayda vermədiyi hər kəsə aydın olmalıdır. Bununla Fransa tərəfi anlamalıdır ki, onun tərəfindən həyata keçirilən bu kimi destruktiv fəaliyyətə nə qədər ki, son qoyulmayıb, bu həm Fransanın zərər görmüş imicinə, həm də hər vəchlə müdafiə etdiyi Ermənistana xeyir gətirməyəcək.

Ermənistanın təxribatları nəticəsində 2016-cı ildə baş vermiş dördgünlük Aprel döyüşlərində, 2020-ci ildə qırx dörd günlük Vətən müharibəsində, 2023-cü ildə bir gün ərzində həyata keçirilən lokal xarakterli antiterror əməliyyatlarında Azərbaycan Ordusunun böyük rəşadət göstərərək otuz ilə yaxın davam edən işğala son qoyması, Qarabağı və Şərqi Zəngəzuru azad etməsi, ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması Fransa başda olmaqla bəzi Qərb ölkələrinin rəhbərlərinin məkrli planlarını pozub.

Azərbaycanın Ermənistan üzərində tarixi qələbəsindən sonra ikili standartlardan əl çəkə bilməyən, ermənipərəst mövqeyini gizlətməyən, əslində, münaqişələri daha da qızışdıran, bir sıra qərəzli beynəlxalq təşkilatlar, həmçinin Fransa kimi riyakar siyasət yürüdən dövlətlər cilddən-cildə girirlər.

Uzun illər Ermənistanın Azərbaycanın ərazisinin 20 faizini işğal altında saxladığını, xalqımıza qarşı törətdiyi terror aktlarını, qətliamları, soyqırımlarını görməzliyə vuran Fransanın böyük Zəfərimizdən sonra yalanla, böhtanla dolu qətnamələr qəbul etməsi bizə qarşı təzyiq və təhdid cəhdləridir. "Zavallı erməniləri" dəstəkləmək adı ilə Makron hökuməti öz riyakarlığına, qərəzkarlığına don geyindirməyə çalışır.

Aprelin 2-də Fransanın Avropa və xarici işlər naziri Stefan Sejurnenin ABŞ Dövlət katibi ilə mətbuat konfransında Azərbaycanla bağlı iddiaları da Fransa hökumətinin ölkəmizi hədəfə almaq niyyətini, ümumilikdə Cənubi Qafqazda sülhü pozmaq və regionu yeni münaqişə ocağına çevirmək istəyinin bariz nümunəsidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



Azərbaycan.- 2024.- 5 aprel, № 70.- S.1, 10.